*AMEA Filologiya və sənətşünaslıq, 2025, № 2* *ISSN 2663-4368*
*Səhifə:72-76* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2025.2.72*

# Əli Sərkarov və onun "İki həyat" hekayəsi

**Gülüş Səfərzadə**
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
gulushsafarzada@gmail.com
ORCID ID: https://orcid.org/0009-0001-9359-4105

**Annotasiya:** AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun arxivində tanınmış simaların əsərləri ilə yanaşı, adı elm və ədəbiyyat aləminə az məlum olan və ya ümumiyyətlə məlum olmayan neçə-neçə şairin, ədibin, elm adamlarının əsərləri qorunub saxlanılır. Müxtəlif dövrlərdə qələmə alınmış bu bədii, sənədli, bədii-sənədli, elmi əsərlər qələmə alındığı dövr haqqında qiymətli məlumatlar verməklə bərabər, həm də diqqətdən kənarda qalmış müəllifləri öz əsərlərinin vasitəsilə bizə tanıdır. Belə müəlliflərdən biri də XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşayıb-yaratmış maarifçi, ziyalı Əli Sərkarovdur. Əlyazmalar institutunda onun "İki həyat", "Bağladılar", "Şərifə bacı", "Məişətimizdən birində" və "Mələksima" adlı hekayələrindən ibarət əlyazmaları qorunur.
"İki həyat" hekayəsi Ə. Sərkarovun həcm etibarilə ən böyük və əhatə etdiyi mövzu baxımından ən geniş əsəridir. Müəllif əsərdə o dövrdə Azərbaycan cəmiyyətində mövcud olan təhsil, təlim və tərbiyə ilə bağlı problemlərə toxunmuş, bu problemlərin yaranma səbəblərini müəyyənləşdirməyə çalışmışdır.
**Açar sözlər**: Əli Sərkarov, maarifçi, nasir, əlyazma, hekayə

**Məqalə tarixçəsi:** göndərilib – 08.07.2025; qəbul edilib – 17.09.2025

# Ali Sarkarov and his story of "Two lives"

**Gulush Safarzade**

**Abstract:** In addition to the works of famous figures, the archives of the Institute of Manuscripts named after Mahammad Fuzuli of ANAS also preserve the works of poets, writers, and scholars whose names are little known to the world of science and literature or are not known at all. These literary, documentary, literary-documentary, and scientific works written in different periods not only provide valuable information about the period in which they were written, but also introduce us to authors whose works have been overlooked. One of such authors is the enlightener and intellectual Ali Sarkarov, who lived and created in the late 19th and early 20th centuries. His manuscripts, consisting of the stories "Two Lives," "They Closed", "Sister Sharifa", "In One of Our Households," and "Melaksima," are preserved at the Institute of Manuscripts.
The story "Two Lives" is A. Sarkarov's largest work in terms of volume and the most extensive in terms of the subject matter it covers. In the work, the author touched upon the problems related to education, training and upbringing that existed in Azerbaijani society at that time, and tried to determine the causes of these problems.
**Keywords:** Ali Sarkarov, educator, prose writer, manuscript, story

**Article history:** received – 08.07.2025; accepted – 17.09.2025

## Giriş / *Introduction*

XX əsrin birinci yarısı Azərbaycan tarixinin ən qarışıq, ziddiyyətli dövrlərindən biridir. Belə mürəkkəb bir dövrdə ictimai tərəqqi yolunu maarif və mədəniyyətin inkişafında görən Azərbaycanın qabaqcıl fikirli ziyalıları milli mədəniyyəti inkişaf etdirmək üçün əllərindən gələni edirdilər. Bu ziyalılardan biri də maarifçi, publisist, nasir Əli Sərkarovdur (bəzi yerlərdə Sərkərov).

Ə. M. Sərkarovun həyatı haqqında məlumat çox azdır. Onun haqqında ən dəqiq məlumatı qələmə aldığı xatirələrdən öyrənirik. Ədib XIX əsrin sonlarında Şuşada anadan olmuş, ilk təhsilini doğma şəhərində almışdır. Daha sonra təhsilini Qori Müəllimlər seminariyasında davam etdirmişdir. 1912-ci ildə Qoridə qələmə aldığı "Bayram xatiratımdan" adlı yazısında oxuyuruq: "*1909-cu ildə Qurban bayramı deqabrın 21-nə təsadüf ediyordı, buna binaən məktəb şagirdlərinə mövlud Həzrət İsa münasibətilə verilən tətil bizə üç gün qəbaq verildi. Qurban bayramını öz qövm-əqrəbam ilə bir yerdə keçürtmək fikrində olaraq mən də vətənə getmək xahişində idim".* [4, s.25]

Ə.Sərkərov seminariyada təhsil alarkən hekayələr yazmağa başlamışdır. Onun "Bir qabda iki hekayə", "Zavallı", "Məhəbbətdən" adlı hekayələrdən ibarət ilk kitabı "Orucov qardaşları" mətbəəsində, "Yarələrim" adlı ikinci kitabı 1914–cü ildə "Kaspi" nəşriyyatında çapdan çıxmışdır. Bu kitaba müəllifin "O da fərəhləndi", "Bağladılar", "Şərifə bacı", "Xatiratımdan" və "Bayram xatiratımdan" hekayələri daxildir.

Əli Sərkarov vaxtaşırı dövri mətbuatda (əsasən, "İqbal" qəzetində) elm və təhsillə bağlı məqalələrlə çıxış etmişdir.

Ə.M. Sərkarov yaşadığı dövrün elmi, ədəbi ictimaiyyəti tərəfindən tanınmış, Azərbaycan romantizm cərəyanının nümayəndəsi, şair, dramaturq Abbas Səhhət, tanınmış pedaqoq Həsən bəy Sultanov kimi görkəmli şəxsiyyətlərlə yaxından dostluq etmişdir. A. Səhhət 1915–ci ildə qələmə aldığı "Bərədərim Ə. M. Sərkərov cənablarına" adlı şeirini ona ithaf etmişdir.

Ə. Sərkarovun bədii yaradıcılığı hekayələrdən ibarətdir. Hekayələrinin əsas mövzusu elm, təhsil və tərbiyənin təbliği, nadanlıq, cəhalət və savadsızlığın tənqidinə həsr edilmişdir.

## Əsas hissə / *Main Part*

**"İki həyat" hekayəsi** ədibin əlimizdə olan əsərlərinin arasında həcmcə ən böyüyüdür. Hekayə müəllif tərəfindən qara mürəkkəblə şagird dəftərində əski əlifba ilə qələmə alınmışdır, səksən üç səhifədən ibarətdir.

Hekayədə təbii fəlakət nəticəsində həyatlarını itirən azərbaycanlı Əmu kişi və erməni Aşot kirvənin ailələrinin taleyindən bəhs edilir.

Hadisə 1892-ci ildə "Şəkiyə yavuq" kəndlərdən birində baş verir. Uzun müddət quraqlıq olduğu üçün Şəki və Şəkiyə yaxın kəndlərin əhalisi səbirsizliklə yağışın yağmasını gözləyir. Şiddətli yağış özü ilə birlikdə fəlakət gətirir. Güclü sel çay qırağında yerləşən kəndlərin sakinlərinin evlərini su altında qoyur, təsərrüfatlarına ciddi ziyan vurur. Fəlakət nəticəsində iki nəfər həyatını itirir. Selin qurbanlarından birincisi bəndə baxmağa gedərkən qəfil selə yaxalanan Əmu kişidir. Onun vəfatından sonra arvadı və Əskər adlı 9 yaşında oğlu qalır.

İkinci qurban isə Aşot kirvədir. Araba ilə Şəkiyə gedən Aşot kirvə çayı keçmək istəyərkən qəfil gələn sel onu arabası ilə birlikdə dərəyə yuvarlayır. Onun da arvadı, 9 yaşında oğlu və 7 yaşında qızı qalır.

Əmu kişinin vəfatından sonra baş verən hadisələrə keçməzdən əvvəl müəllif onun ailəsi haqqında məlumat verir. Onun atası, əmisi quldurluqda ad qazanıb bu yolda tələf olmuş, qardaşı "*igitligin, şücaətin, namus və qeyrətin kəsrətindən"* [3, s.20] Sibirə sürgün edilmişdir. Ədib ötən əsrin əvvəllərində, oğurluğun, quldurluğun qəhrəmanlıq sayıldığı Azərbaycan mühitində istehza ilə onların əməllərini igidlik, şücaət adlandırır. Onlardan fərqli olaraq, Əmu kişi sakit, başıaşağı, yazıq bir adamdır: "*Bunların nəslində nədən isə yalnız Əmu kişi "məğmun" yaranmış idi. Aba-əcdad qanı Əmu kişinin damarlarında oynamayub onın vəfatından sonra qalan Əskər namlı oğlunun damarlarında cuşa gəldi"* [3, s.21].

Əmu kişinin ölümü arvadı Xədicəni tamamilə çaşdırır. Azyaşlı oğlu ilə təkbaşına, köməksiz qalan Xədicə nə edəcəyini bilmir. Yazıçı həyat yoldaşını itirən müsəlman qadınların belə çarəsiz vəziyyətə düşmələrinin səbəblərini araşdırır və qızları qapanmağa məcbur edən, oxumağa, təhsil almağa qoymayan ailələri, bütövlükdə cəmiyyəti günahlandırır: "*Təsəttür bizim biçarə ana-bacılarımıza o dərəcədə korluq çəkdirür ki, işıqlı dünya yazıqlara qara görünür; təsəttür arvadları göz açub dünyaya baxmaqa qoymayur, bundan naşı bizim arvadların əksəri beş almanı beş adam arasında paylaşdıra bilməyür*". Ədib qız uşaqlarına ancaq yemək bişirməyi, ev işləri ilə məşğul olmağı və ərinə qulluq etməyi öyrədən ailələri qınayır, çətinliyə düşərkən necə davranmalı olduğunu bilməyən, öz həyatını və övladlarının taleyini tamamilə bir kişinin ümidinə bağlayan müsəlman qadınlarının halına acıyır və bunun necə ağır nəticələrə səbəb olduğunu göstərir.

Yazıçı onları başqa millətdən olan qadınlarla müqayisə edərək yazır: "*Əcnəbi millətlərin arasında bir ailədə kişi vəfat edər isə, dərhal arvadı ailə dolandırmaqı öhdəsinə götürür. Mən bir baqqal gürcü tanıyurdım, o gürcünün vəfatından sonra arvadı gedüb ərinin dükanında əgləşdi və başladı alış-veriş eləməgə. Özi baqqal dükanında oturdıqı halda iki qızını təlim-tərbiyə içün ğimnaziyaya göndəriyordı və bütün ailəni də necə ki layiqidir, saxlıyordu; İştə sadə bir gürcü arvadının bu hərəkəti şayantəhsin degilmi?*" [3, s.23]

"Bir azərbaycanlı qadın eyni vəziyyətə düşərsə, nə edər?"- sualına müəllif belə cavab verir: *"Dükanda olan-olmazı, şəksiz ki, əxilər yeyəcək, uşaqların anası da birdən-birə səhniməişətdə təcrübəsiz qalub başləyacəq evbəev gəzüb iş axtarməqa. Saniyən, arvadların əksəri tərbiyəsiz və bielm olmaqı cəhətindən onların qız ikən fikri-zikri neçə dəst paltar tikdirmək, əllərə həna qoymaq və bəzi parə ev işlərinə məşğul olmaqdır, ərə getdikdən sonra toy, qonaqlıq gəzmək və axır gün içün də bir tədbir yapmamaqdır; ata-analar övladlarının pis günlərini düşünməyürlər...."* [3, s.23]

Müəllif cəmiyyətin ailə başçısını itirən qadınlara qarşı dəyişən münasibətini də tənqid edir. Bu qadınlar birdən-birə hamı tərəfindən kənarlaşdırılır: *"Xədicə dul və fəqirə olmaqına görə qomşulardan heç kəs onunla danışmaq da istəmiyordı"*. [3, s.21]

Beləliklə, Xədicə həyatın gerçəkləri qarşısında yalqız qalır. O, bir qarın çörəkdən ötrü qonşulara ev işlərində kömək edir, getdiyi evlərə oğlu Əskəri də özü ilə bərabər aparır. İşlədiyi evlərdən birinin sahibi Ədhəm bəy Əskəri görüb ona məktəbə getməyi, oxumağı məsləhət görür və təhsil haqlarını ödəməyi öz üzərinə götürəcəyini deyir. Xədicə savadsız olmaqla bərabər, həm də dar düşüncəli, bəsirətsiz və avamdır. O da, Əskər də oxumağa mənasız iş kimi baxır və heç biri bu təklifi qəbul ertmir. Əskər zavodda işləmək istədiyini deyir. Bu, Xədicənin də ürəyincədir, *"heç olmasa, qış uzunı korlıq çəkmərik"*,- deyib sevinir.

Bütün bunlarla bərabər, Xədicə həm də analıq hissindən, analıq məsuliy-yətindən də məhrumdur. O, *"analıq vəzifəzini unudub"* doqquz yaşlı oğlunu bu dünyada kimsəsiz, yalqız qoyaraq bir arabaçıya qoşulub qaçır. Əgər Xədicənin savadsızlığını, bacarıqsızlığını, avamlığını onun savadsız olması ilə, tərbiyəsindəki qüsurlarla bağlayırıqsa, övladını tərk etməyi sırf onun xarakterindəki əksiklik, eqoizm və məsuliyyətsizlikdən qaynaqlanır.

Düzgün tərbiyə olunmamış, xaraktercə qatı və döyüşkən olan, özü kimi uşaqların əhatəsində böyüyən Əskərin gələcəyi heç də parlaq görünmür. Çox erkən yaşında atasını itirən, üstəlik anası tərəfindən tərk edilən bu uşaq həyatın çətinlikləri qarşısında tamamilə müdafiəsiz qalır. Qeyri-ixtiyari yenə Ədhəm bəygilə sığınan Əskər onun köməkliyi ilə zavodda işə düzəlir. Onun kimi kimsəsiz, dəli-dolu oğlan uşağı, əlbəttə ki, burada çox tez təsir altına düşür, oğurluğa qurşanır. Daha sonra dəstə yaradıb quldurluqla məşğul olan Əskər Sibirə sürgün edilir.

Onunla eyni taleyi bölüşən, güclü sel nəticəsində atasını itirən Petrusun həyatı tamamilə başqa məcrada davam edir. Atasının ölümündən sonra o, anası və bacısı ilə birlikdə dayısıgildə yaşamağa başlayır. Oxumağa böyük həvəsi olan Petrus kənd məktəbinin müəlliminin diqqətini cəlb edir və müəllim onu məktəbə dəvət edir. Bu təklif bütün ailəni sevindirir. O, böyük həvəslə oxumağa başlayır. Xəstəlik səbəbilə anasını da itirən Petrusu və bacısını müəllim öz himayəsinə götürür. Onları boya-başa çatdırıb gözəl təhsil almalarına kömək edir. Onların

oturub-durduqları, dostluq etdikləri uşaqlar – qonşunun oğlu Nikolay, müəllimin bacısının oğlu Saşa da özləri kimi sakit, ağıllı və oxumağa can atan uşaqlardır. Darülfünunu bitirib həkimlik edən Petrus müəllimin qızı Liza, bacısı isə mühəndisliyi bitirən Saşa ilə ailə qurur.

Hekayənin sonunda Qoçu Əskər *("Məhlə arasındakı cəvanların ən şücaətlisi oldığına görə buna qoçulıq ləqəbi verilmiş idi"* [3, s.77]) adam öldürmək üstə Sibirə sürgün edilir.

Əskərin aqibətinin belə olmasında yalnız özü deyil, ailəsi, əhatəsi, qonşular, onun uçuruma yuvarlanmasını laqeydliklə seyr edən insanların hamısı günahkardır.

Ədhəm bəy Əskəri doğru yola çəkmək üçün cəhd edir, lakin təkid etmir və onun sonrakı taleyi ilə maraqlanmır. Yalnız öz xeyrini güdən xozeyin Lətif isə uşaqların ucuz əməyindən istifadə edərək cibini doldurmaqla məşğuldur.

Əsərin sonunda hekayəni redaktə edən mühərririn qeydləri yer alır. "İki həyat"ı Ə. Sərkarovun hekayələri arasında ən dəyərlisi adlandıran mühərrir əsər haqqında bəzi iradlarını da bildirir. Onun fikrincə, müəllifin iki həyat arasında apardığı müqayisə o zaman daha doğru olardı ki, Əskər də Petrus kimi sakit və *"talibi-elm və mərifət"* olaydı, lakin mühit, şərait ona məqsədinə çatmağa imkan verməyəydi. *"Böylə olursa, hekayə daha rəvan bir zəminə almış olur, həm də fitrət degil, mühit və şərait tənqid edilmiş olur ki, məqsəd də bu olsa gərək"* [3, s.84].

Mühərririn bu fikrinə müəyyən mənada qatılmaq olar, çünki, doğrudan da, müəllifin əsl məqsədi, dövrün, cəmiyyətin qüsurlarını açıb göstərməkdir. Burada isə Əskərin xarakteri, ailəsi və nəslindəki çatışmazlıqlar qabardılır. Lakin digər tərəfdən də, insanların xarakterinin, əxlaqının formalaşmasında mühit və tərbiyə də mühüm rol oynayır ki, müəllif bunları da göstərməyə çalışmışdır: *"Əskərin babaları gedən yol ilə getməginə bais yalnız irs olmayub, özi dolandığı dairə dəxi vasitə oldu..."* [3, s.21].

Həyatda hər zaman xeyir və şər, işıq və qaranlıq, müsbət və mənfi tərəflər mövcud olmuşdur. İşıqlı, yoxsa qaranlıq tərəfi seçmək ilk növbədə insanın xarakterindən, *"damarlarında axan aba-əcdad qanından",* dünyagörüşündən, aldığı tərbiyədən, onu əhatə edən mühitdən və seçimlərindən asılıdır. Əskərin qarşısına yaxşı insanlar da çıxır. Ədhəm bəy onu himayəsinə alaraq oxutmaq istəyir. Ədhəm bəyin arvadı Zəhralnisa xanım onu məktəbə getməyə razı salmaq üçün çox çalışır. Xədicədən fərqli olaraq, Zəhralnisa xanım ağıllı, mərhəmətli uzaqgörən bir qadındır. O, Əskərin sonunun nə ilə bitəcəyini qabaqcadan gördüyü üçün onun təhsil alıması üçün israr edir, lakin Əskər razılıq vermir.

Əskər xasiyyətcə çılğın, inadkar və tərsdir, düzgün tərbiyə olunmayıb. Bu, onun seçimlərində də özünü göstərir. O, özü kimi uşaqlarla dostluq edir, onlara qoşulub məktəbə gedən uşaqları ələ salır, daşa basır. Onun məktəbə getmək istəməmə səbəblərindən biri də budur. Vaxtilə daşa basdığı uşaqlarla bir yerdə oxumaqdan çəkinir. Zavodda işləməyə başlayanda da dostluq etdiyi Mürsəl adlı oğlan ona oğurluq etmək, yalan danışmaq, siqaret çəkmək kimi pis vərdişlər öyrədir. Beləliklə, Əskər həyatda qaranlıq tərəfi, şər tərəfi seçir və bu seçiminin cəzası ağır olur. O, cinayət işləyir və babası, əmisi kimi Sibirə sürgün edilir.

Petrus həyatın işıqlı tərəfini seçir. O, oxumağa, savad almağa meyl edir. Onun da valideynləri avam və savadsızdırlar. Lakin Petrus bütün qəlbi ilə oxumağa, öyrənməyə can atır. Şəhərə gedən atasından xahiş edir ki, ona kitab, dəftər alsın. Məktəbdə təhsil alan qonşusu Nikolayın əlində kitab görüb uşaqlarla oynamağı yarıda qoyub kitaba baxmağı üstün tutur və onunla dostluq etməyə başlayır. Atasının ölümü həm də onu oxudan olmayacaq deyə Petrusa ağır təsir edir. Kənd məktəbinin müəllimi ondakı bu oxumaq həvəsini, ağlı, əzmi gördüyü üçün onu məktəbə dəvət edir. Daha sonra isə təhsilini davam etdirmək üçün darülfünuna göndərir. Yəni, Petrus əvvəldən həyatda seçimini etmişdi. Əlbəttə, həyat onun qarşısına belə imkanlar çıxarmaya da bilərdi, amma əsəri oxuyarkən elə bir təəssürat yaranır ki, o, bir yol tapıb oxumağa çalışardı.

Ə. Sərkarovun "İki həyat" hekayəsi gözəl, axıcı bir dillə yazılmışdır. Müəllifin özünəməxsus üslubu, təhkiyə üsulu vardır. Əsərin əvvəlində təbiət təsvirinə geniş yer verən yazıçı orijinal bədii təsvir və ifadə vasitələrindən istifadə etmişdir. Təbii fəlakət, onun insanlarda yaratdığı qorxu və təlaş real təbii boyalarla təsvir edilmişdir.

## Nəticə / *Conclusion*

Ə. M. Sərkarov "İki həyat" hekayəsində iki ailənin yaşayışını, başına gələnləri təsvir edərək qarşılaşdırır.. Onun bu qarşılaşdırma üçün fərqli millətə və dinə mənsub ailələri seçməsi təsadüfi deyildir. Müasir dövr kontekstindən baxanda müqayisə üçün erməni ailəsinin seçilməsi və hətta təqdir olunması qınanıla və yaxud xoş qarşılanmaya bilər. Lakin hekayəni oxuyarkən əmin oluruq ki, burada müəllifin fikri heç də öz millətini alçaldıb digər milləti ucaltmaq deyil. Yazıçı Azərbaycan müsəlman cəmiyyətində mövcud olan qüsurları, çatışmazlıqları diqqətə çatdırmaq üçün belə bir müqayisəyə ehtiyac duymuşdur.

Həyatını elm və maarifin təbliğinə, təşviqinə həsr edən, istər bədii, istərsə də publisistik yazılarında hər zaman təhsilin, tərbiyənin önəmini vurğulayan, savadlı insanla savadsızın fərqini göstərməyə çalışan maarifçi, yazıçı, publisist Ə. M Sərkarov "İki həyat" hekayəsində Əskərin taleyini, daha doğrusu, talesizliyini təsvir edərkən, şübhəsiz ki, buna nail olur.

## Ədəbiyyat / *Reference*


1. Abdullayeva S. Görkəmli maarifçi Həsən bəy Sultanovla bağlı elmi-praktik konfrans olub. 525-ci qəzet, 15 aprel 2014
2. Səhhət A. "Seçilmiş əsərləri" Bakı, "Lider nəşriyyat", 2005, 454 səh.
3. Sərkarov Ə. M. "İki həyat" AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, B-1099/2722
4. Sərkərov Ə. M. Yarələrim. Bakı: "Kaspi" , 1914, 35 səh. ANL Azərbaycan ədəbiyyatının arxivi şöbəsi


### Али Серкаров и его рассказ «Две жизни»

**Гюлюш Сафарзаде**

**Резюме.** Помимо произведений известных деятелей, в архивах Института рукописей имени Мухаммеда Физули НАНА хранятся произведения многих поэтов, писателей и ученых, имена которых малоизвестны или вовсе неизвестны миру науки и литературы. Эти литературные, документальные, литературно-документальные и научные произведения, написанные в разные периоды, не только предоставляют ценную информацию о периоде, в который они были написаны, но и знакомят нас с малоизвестными авторами через их произведения. Одним из таких авторов является просвещенный интеллектуал Али Серкаров. Его рассказы «Две жизни», «Закрыли», «Сестра Шарифа», «В одной из наших домов» и «Мелаксима» защищены в Институте рукописей.

«Две жизни» — самое крупное по объему и самое обширное по тематике рассказ А. Саркарова. В произведении автор затронул проблемы, связанные с образованием, обучением и воспитанием, существовавшие в азербайджанском обществе того времени, и попытался определить причины этих проблем.

**Ключевые слова:** Али Серкаров, педагог, прозаик, рукопись, рассказ